*Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Cəfərovun Adalet.az-a müsahibəsi.*

# "Xarici aqrar universitetlərin zəngin təcrübəsindən ADAU-da geniş istifadə olunur"

## *İbrahim Cəfərov:* "Son iki ildə yüksək balla universitetə qəbul olunanların sayı əhəmiyyətli dərəcədə artıb"

**-İbrahim müəllim, bu gün ölkədə baş verən iqtisadi proseslər aqrar sahənin inkişafını zəruri edir. Bu baxımdan universitetin kadr potensialı hansı səviyyədədir?**

-Ölkəmizdə ali aqrar təhsil üzrə mütəxəssis hazırlığına 1920-ci il dekabrın 16-dan başlanılıb. Belə ki, həmin dövrdə Bakı Politexnik İnstitutunun tərkibində kənd təsərrüfatı fakültəsi yaradılmışdı. 1929-cu ildə isə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu yaradıldı. İnstitut yarandıqdan sonra 1931-ci ildə Gəncəyə köçürüldü. 1991-ci ildən Azərbaycan Kənd Təsərrüfatı Akademiyası, 2009-cu ildən Azərbaycan Dövlət Aqrar Universiteti adlanır. Bu gün universitetdə bakalavriat, magistratura və doktorantura üzrə əyani və qiyabi təhsil formalarında mütəxəssis hazırlığı aparılır. Əvvəlki illərdən fərqli olaraq son iki ildə yüksək balla, (hətta 600-dən çox) universitetə qəbul olunanların sayı əhəmiyyətli dərəcədə artıb. Yaşı ötmüş pedaqoji heyətin müasir düşüncə tərzinə malik perspektivli gənclər hesabına cavanlaşdırılması istiqamətində işlər həyata keçiririk ki, bu da öz müsbət nəticələrini verməkdədir.

**-Avropa ölkələri kənd təsərrüfatı sahəsində mühüm irəliləyişlərə nail olublar. Onların təcrübəsindən istifadə məsələsi nə dərəcədə tədris olunur?**

-2007/2008-ci tədris ilindən Avropa və dünyanın əksər universitetlərində tətbiq edilən Bolonya prosesi - kredit sistemi ilə universitetdə tədris prosesi həyata keçirilir. Son illərdə universitetin xarici ölkələr, o cümlədən Avropa ölkələrinin universitetlərilə (Fransa, İspaniya, Niderland, Almaniya, Macarıstan, Polşa, Belçika, MDB ölkələri və Türkiyə universitetləri) tədris və elmi əməkdaşlıq sahəsində müqavilələr bağlanıb. Bu müqavilələrə əsasən ADAU-nun tələbə və müəllimləri həmin universitetlərdə, xarici universitetlərin tələbə və müəllimləri də bizim universitetdə təcrübə keçir, elmi-praktik konfranslarda və digər tədbirlərdə iştirak edirlər. Xarici aqrar universitetlərin zəngin təcrübəsindən ADAU-da geniş istifadə olunur. ADAU-da Beynəlxalq elmi-praktik konfransların, ustad dərslərin keçirilməsi son illərdə ənənə şəklini almışdır ki, bu da xarici ölkə alimlərinin təcrübələrindən səmərəli istifadə olunmasına zəmin yaradır. Elm, istehsalat və tədris modelinin yaradılması istiqamətində aparılan gərgin işlərə görə ADAU 2011-ci ildə Avropa Rektorlar Şurası Assambleyasının "Elm və təhsildə nailiyyətlərə görə qızıl medalı" ilə təltif olunub.

**-Bir çoxları həkim, müəllim kimi peşələrə yiyələnməyə can atır. Maraqlıdır, aqrar sahənin bilicisi olmaq istəyənlər hansı səviyyədədir? Bütün ixtisaslar üzrə tələbə qəbulu həyata keçirilirmi?**

-Rektorluq, professor-müəllim heyəti kənd təsərrüfatı ixtisasları qrupu ilə yanaşı digər ixtisaslar üzrə mütəxəssis hazırlığına da önəm verir. Belə ki, aqrar sahə üçün prioritet sayılan "torpaqşünaslıq və aqrokimya", "aqronomluq", "meşəçilik", "ekologiya", "su bioehtiyatları və akvabitkilər", "yerquruluşu, torpaq və şəhər kadastrı", "zootexniklik", "baytarlıq", "baqlıqçılıq və balıqçılıq təsərrüfatı işi", "aqromühəndislik" ixtisasları üzrə mütəxəssis hazırlığı aparılır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinin müvafiq Sərəncamı ilə 2013/2014-cü tədris ilindən başlayaraq bakalavriat səviyyəsinə kənd təsərrüfatı ixtisasları üzrə tələbə qəbulu yalnız dövlət sifarişi əsasında həyata keçirilir. Əvvəlki tədris illərindən fərqli olaraq 2015/2016-cı tədris ilində kənd təsərrüfatı ixtisaslarının əksəriyyəti üzrə qəbul planı tam yerinə yetirilib. Bu ixtisaslar ilə yanaşı universitetdə "qida məhsulları mühəndisliyi", "istehlak mallarının ekspertizası və marketinqi", "əczaçılıq", "maşın mühəndisliyi", "elektroenergetika mühəndisliyi", "informasiya texnologiyaları və sistemləri mühəndisliyi", bir neçə iqtisadi ixtisaslar üzrə mütəxəssis hazırlığı aparılır.

**-Universitetin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində hansı addımlar atılır?**

-Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə universitetə 3 ədəd Hyundai avtobusu, 1 ədəd Peugeot markalı mikroavtobus verilib. Kənd təsərrüfatı naziri cənab Heydər Əsədovun universitetdə olması, maddi-texniki baza ilə yaxından tanışlığı, professor-müəllim heyəti, tələbələr, magistrant və doktorantlarla görüşündən keçən qısa müddət ərzində onun göstərişi ilə baytarlıq xidməti tərəfindən universitetə bütün avadanlıqları ilə birlikdə baytarlıq-sanitariya ekspertizası laboratoriyası yaradılıb. Bununla yanaşı "Aqrolizinq" ASC tərəfindən 16 adda yeni xarici kənd təsərrüfatı texnikası, o cümlədən NEW HOLLAND markalı taxılyığan kombayn, Belarus MTZ-892 traktoru, kotan, toxumsəpən, çiləyici, kartof basdıran, bağlıq və üzümlükdə cərgəarasını becərən frez, mineral gübrəsəpən, rotorlu və bıçaqlı otbiçən, pnevmatik toxumsəpən, kartofqazan və s. verilib. Universitetin 1500 m2 ərazisində zəngin maşın-traktor parkı yaradılıb ki, bu parkda avtobuslar, yük avtomobilləri, traktor və müxtəlif markalı müasir kənd təsərrüfatı maşınlarının olması təcrübə məşğələlərinin, sürüş təlimlərinin təşkilinə, tələbələrin müasir texnikanın quruluşuna, nizamlanmasına və istismar qaydalarına dərindən yiyələnməsi üçün imkan və şərait yaratmaqla yanaşı, elmi-tədqiqat işlərinin səviyyəsinin yüksəldilməsinə də xidmət edəcək. Uzun illər acınacaqlı vəziyyətdə olmuş idman salonu əsaslı təmir edilmiş, lazımi trenajorlarla təchiz edilib, 30 ədəd idman geyim forması, 24 ədəd qədim milli geyim forması alınıb. Gəncə şəhər İcra Hakimiyyətinin Başçısı cənab Elmar Vəliyevin və universitet kollektivinin iştirakı ilə idman salo-nunun təntənəli açılışı olmuş və tələbələrin istifadəsinə verilib. Tələbələrə xüsusi diqqət və qayğı rektorluğun fəaliyyətinin vacib mərhələlərindəndir. Bu gün universitetin 4 tələbəsinə bir kompüter düşür ki, bu da Respublikanın universitetlərindəki orda göstəricidən dəfələrlə çoxdur.



**-2015-ci il kənd təsərrüfatı ili idi. Bu il çərçivəsində hansı tədbirlər keçirilib?**

-2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsi ilə bağlı universitetdə genişmiqyaslı işlər yerinə yetirilib. Bu tədbirlər sırasında tələbələrin sosial-məişət şəraitinin yaxşılaşdırılması prioritet yer tutur. Tələbələrimizin yarıdan çoxu digər regionlardan olmaqla kirayə evlərdə yaşayır ki, bu da maddi və sosial problemlərlə yanaşı, tələbə gənclər üçün həlli vacib olan məsələlərdəndir. Regionların sosial- iqtisadi inkişafı Dövlət Proqramının (2014-2018-ci illər) tələbləri baxımından ölkə prezidentinin yaxından dəstəyi ilə universitetdə ən müasir tələblərə cavab verən 2 yataqxana kompleksi tikilməsinə icazə verilib, hər yataqxanada 500 nəfərdən çox tələbənin yerləşdirilməsi nəzərdə tutulur. Yataqxanalardan birinin tikintisi artıq başa çatmış, digərinin isə növbəti tədris ilinin başlanğıcında istifadəyə verilməsi gözlənilir. Yataqxanalarda tələbələrin təhsili, istirahəti, idman və məişəti ilə bağlı bütün məsələlərin həlli nəzərdə tutulub. Universitetin əsas tədris korpuslarının yerləşdiyi ərazidə yataqxanaların istifadəyə verilməsi müasir standartlara cavab verən kampus sisteminin formalaşdırılmasına, habelə beynəlxalq layihələr çərçivəsində xarici ölkələrlə tələbə-müəllim mübadiləsinə geniş imkanlar yaradacaq. Aqronomluq fakültəsinin kafedralarına müasir laboratoriyaların quraşdırılması ilə yanaşı, burada binanın döşəməsi tamamilə yenilənmiş, binanın istilik sistemi yenidən qurulmuş, torpaqşünaslıq, bitki mühafizəsi labo-ratoriyaları üçün yeni avadanlıqlar alınıb. Aqrotexnologiya fakültəsində "istehlak mallarının ekspertizası və marketinqi" və "qida məhsulları mühəndisliyi" ixtisasları üzrə mütəxəssis hazırlığının keyfiyyətinin yaxşılaşdırılması, tələbələrin praktiki bilik və vərdişlərinin inkişaf etdirilməsi məqsədilə müasir laboratoriya avadanlıqları alınmış və 2 auditoriyada quraşdırılıb. Gəncə şəhərində ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Şərab Festivalı çərçivəsində universitetin qida məhsulları mühəndisliyi və ekspertiza kafedrasında şərab məhsullarının dequstasiyası və müsabiqəsi təşkil olunur. Bunu nəzərə alaraq şərab məhsullarının istehsalı və saxlanması məqsədilə kafedranın zirzəmisi əsaslı şəkildə təmir olunub, soyuducular, saxlanma və digər avadanlıqlarla təchiz edilib. Baytarlıq təbabəti və zoomühəndislik fakültəsində "balıqçılıq və balıqçılıq təsərrüfatı işi" ixtisası üzrə mütəxəssis hazırlığının keyfiyyətini yaxşılaşdırmaq məqsə-dilə fakültənin nəzdində ümumi sahəsi 72 m2 olan "Qapalı balıqyetişdirmə laboratoriyası" yaradıl-mış və iki növdə 2 mindən çox balıq yetişdirilməsinə başlanıb. Artıq həmin ərazidə 16 ədəd açıq su hovuzunun inşası başa çatdırılmış və onların hər birində müxtəlif cins balıqlar bəslənilir. Laboratoriyada tələbələr balıq kürüsünün alınması, mayalandırılması məsələlərindən başlayaraq, balıq alınmasınadək bütün texnoloji prosesdə iştirak edir, həmçinin müxtəlif növ balıqların yetişdirilməsi və yemləndirilməsi texnologiyasına da yiyələnirlər. Universitetdə heyvandarlığın müxtəlif sahələri ilə yanaşı arıçılıq üzrə də mütəxəssis hazırlığının müasir tələblər səviyyəsində qurulması məqsədilə arıçılığın iqtisadi əhəmiyyətini nəzərə alaraq baytarlıq təbabəti və zoomühəndislik fakültəsinin ərazisində arıçılıq məhsullarının istehsalı laboratoriyası qurulmuş və istifadəyə verilib.

Bundan başqa, patoloji anatomiya mərkəzi müasir standartlar çərçivəsində təmir edilib. Gəncə şəhərində ən böyük binalardan olan 2- "mühəndislik" və "elektroenergetika və informasiya texnologiyaları" fakültələrinin, bir neçə struktur bölmənin yerləşdiyi mühəndislik korpusunun fasadının xüsusi layihə əsasında müasir standartlara və milli memarlıq üslubuna uyğun yenidən qurulması istiqamətində görülən işlər binaya xüsusi gözəllik verməklə, onun cəlbediciliyinin artmasına səbəb olur. Təmir işləri yekunlaşmaq ərəfəsindədir. İqtisadiyyat korpusunda 2 - "aqrobiznes və idarəetmə" və "aqrar iqtisadiyyat" fakültələri yerləşməklə, burada 1200-ə yaxın tələbə təhsil alır. Bu fakültələrin ixtisaslarına tələbatın yüksək, vahid sahəyə düşən tələbənin sayının çox olmasını nəzərə alaraq korpusun arxasında istifadəyə yararsız binalar əsaslı şəkildə təmir olunmuş, internet, istilik sistemi, kompüterlər, ağıllı lövhələr, mebel dəstləri, parta və yumşaq stullarla təchiz edilmiş və tədris ilinin başlanğıcında istifadəyə verilmişdir. Əlavə olaraq bildirməyi vacib sayıram ki, universitetin daxili imkanları hesabına son iki ildə bütün professor-müəllim heyətinin və tədris köməkçi işçilərinin aylıq maaşlarına əlavələr edilmişdir. Bütün bu işlər 2016-cı ildə də uğurla davam etdiriləcəkdir.

**Ədil Ədilzadə**